# Azərbaycanlı alimdən yeni kitab –

# "Etika və estetika"




***Bu günlərdə Azərbaycan Turizm və Menecment Universitetinin 'Beynəlxalq münasibətlər kafedrasının" dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru Elşən Bayramzadənin 'Etika və estetika" adlı yeni kitabı işıq üzü görüb.***

"Delta Uni MMC" nəşriyyatında çap olunub oxucuların diqqətinə çatdırılan "Etika və Estetika"dərs vəsaiti ali təhsil məktəbləri üçün nəzərdə tutulmuş standartlar əsasında hazırlanıb. Sözügedən kitabda etika və estetika tarixinin əsas mərhələləri, onun xeyir və şər, azadlıq və məsuliyyət, borc və vicdan, gözəllik və eybəcərlik, ülvilik və rəzillik, faciəvilik və komiklik kimi fundamental kateqoriyaları ətraflı şərh edilmişdir. Eyni zamanda incəsənətin fəlsəfi təhlili verilmiş, onun müxtəlif növ və janrlarının izahına geniş yer ayrılmışdır.

Dərs vəsaitinə daxil edilmiş materiallar tələbələrə etik norma və prinsiplər haqqında ətraflı biliklər verəcək, həmçinin onların estetik zövqününformalaşmasına kömək edəcək.

Qeyd edək ki, vəsait ali təhsil məktəblərinin bakalavr pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulsa da, ondan müəllimlər, magistrlar, eyni zamanda etika və estetikanı müstəqil şəkildə öyrənənlər də istifadə edə bilər.

***Onu da vurğulayaq ki, kitabın müəllifi Elşən Əsgər oğlu Bayramzadə 1971-ci ildə Sabirabad rayonunun Çiçəkli kəndində anadan olmuşdur.***

1993-cü ildə Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir.

2007-2011-ci illərdə AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun dissertantı olmuş, 2013-cü ildə fəlsəfə üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Qloballaşma və informasiya cəmiyyəti: qarşılıqlı təsirin dinamikası (sosial-fəlsəfi təhlil)" mövzusunda yazdığı dissertasiya işini müdafiə etmişdir.

***2011-ci ildən Azərbaycan Turizm və Menecment Universitetində çalışır, 'Beynəlxalq münasibətlər kafedrasının" dosentidir.***

***Ailəlidir. 2 övladı var.***

Türküstan.- 2023.- 17-23 yanvar.- S.11.